UOT 37.01.

**Günay Eldar qızı Hüseynzadə**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi işçisi*

**Aynurə Kamal qızı Mahmudova**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun böyük elmi işçisi*

# XARİCİ DİLİN TƏDRİSİNDƏ AUDİO-VİZUAL VASİTƏLƏRİN ROLU

**Гюнай Эльдар гызы Гусейнзаде**
*научный сотрудник Института Образования Азербайджанской Республики*

**Айнура Камал гызы Махмудова**
*старший научный сотрудник Института Образования Азербайджанской Республики*

# РОЛЬ АУДИОВИЗУАЛЬНЫХ СРЕДСТВ ПРИ ОБУЧЕНИИ ИНОСТРАННЫМ ЯЗЫКАМ

**Gunay Eldar Huseynzada**
*researcher of Institute of Education of the Republic of Azerbaijan*

**Aynura Kamal Mahmudova**
*senior researcher of Institute of Education of the Republic of Azerbaijan,*

# THE ROLE OF AUDIO - VISUAL AIDS IN TEACHING FOREIGN LANGUAGES

**Xülasə.** Məqalədə audiovizual mediadan istifadənin dil tədrisini necə asanlaşdırdığı müzakirə olunur. Dərslərdə audiovizual vasitələrdən istifadə edərək müəllimlər dərsi maraqlı və dinamik edə bilərlər. Fərqli vizual effektlər dil öyrənənlərin diqqətini dərslərə cəlb etməyə kömək edir.
***Açar sözlər:*** *dil tədrisi, dil bacarıqları, audio, video, şəkil, lüğət*

**Резюме:** В статье рассматривается, как использование аудиовизуальных средств способствует обучению языку. Используя аудиовизуальные средства в классе, учителя смогут сделать урок интересным и динамичным. Различные визуальные эффекты помогают привлечь внимание учащихся к урокам.
***Ключевые слова:*** *преподавание языка, языковые навыки, аудио, видео, изображение, словарь*

**Summary:** The article discusses how the use of audiovisual media facilitates language teaching. Teachers can make the lesson interesting and dynamic by using audio-visual aids in the classroom. Different visual effects help to draw the learner's attention to the lessons.
***Key words:*** *language teaching, language skills, audio, video, picture, vocabulary*

Müasir texnologiyalardan xarici dilin tədrisində necə və hansı məqsədlə istifadə edildiyini bilmək və ilkin olaraq, onun hansı sahədə səmərə verdiyini anlamaq vacib şərtdir. Bu baxımdan qeyd etmək lazımdır ki, kommunikativ dil tədrisi vacib yanaşmalardandır və son onillikdə müəllimlərə kommunikativ dil tədris olunan siniflərdə daha çox müxtəlif audio - vizual vasitələrdən istifadə etmək tövsiyə olunur. Audio-vizual vasitələr əsasən autentik materialları əhatə etdiyi üçün dərsin interaktiv və daha maraqlı təşkil olunması üçün geniş istifadə imkanları yaradır. Adətən dərs prosesində olan fəaliyyətlər real ünsiyyətə əsaslanır və öyrənənlərə istiqamətləndirici vasitə kimi çıxış edir.

Xarici dilin tədrisi və öyrənmə nəzəriyyəsi metodları dilin tədrisində əlavə audio -vizual vasitələrdən istifadə konsepsiyasını dəstəkləyir. Bu nəzəriyyələrdə audio - vizual vəsaitlərdən istifadə qaydaları və onların dil bacarıqlarının inkişafı ilə əlaqəsi müzakirə olunur.

Bu günlərdə müəllimlər dərslərinin ənənəvidən fərqli olaraq daha interaktiv olması üçün müasir texnologiyanın köməyindən istifadə edirlər. Kompüterlərin və multimedia proyektorlarının mövcudluğu sayəsində müəllimlərə dilin tədrisinə yenilik gətirməyi asanlaşdırıb. Bundan ziyadə, son vaxtlar dil tədrisində texnologiyanın səmərəli istifadəsi distant və elektron təhsili aktuallaşdırıb. Nəticədə, dil tədris edən bir sıra təşkilatlar tərəfindən müxtəlif onlayn kurslar keçirilir. Öyrənənlər texnologiyadan istifadə etməklə müxtəlif virtual kurslardan yararlanır, özünütəhsilə müraciət edə bilirlər.

Xarici dil dərslərində videonun nümayişi dil müəllimləri üçün adi hala çevrilib. Müəllimlər internetdə dilin tədrisi üçün hazırlanmış yüzlərlə oxunaqlı videolar olduğundan ehtiyaca uyğun olanı seçib yükləyə bilirlər. Video monotonluğu aradan qaldıraraq dərsi daha maraqlı edir, hətta öyrənənlərə müzakirə üçün fikir yaratmağa kömək edərək dərsi daha interaktiv və səmərəli edir. Məzmunla əlaqəli videolardan istifadə tələbələrə fikirlərini konseptləşdirməyə və bu mövzuda dərindən düşünməyə şərait yaradır. Bundan başqa, videolardan istifadə dildə vurğu və ritm nümunələri haqqında təsəvvür yaratmağa kömək edir.

Şəkillərdən istifadə dil tədrisində geniş yayılmışdır. Şəkillər dərsi daha maraqlı və interaktiv edən köməkçi vasitə hesab olunur. Öyrənənlər dərs haqqında ümumi məlumat əldə edib daha yaxşı fikirlər yarada bilirlər ki, bu da dərketmə qabiliyyətini artırır. Audio-visual vasitələrdən istifadə öyrənməni ənənəvi dərsliklərlə müqayisədə daha uzunmüddətli edir. Bu vasitədən istifadənin üstünlükləri çoxdur. Məsələn, bütün şəkillər onlayn olaraq mövcuddur, hər müəllim öz sinfinə və tələbələrinə uyğun olanları əldə edə bilər. Bir şəkil şifahi mühazirədən daha təsirli olub min sözü əvəz etməyə kömək edə bilər.

Müasir xarici dilin tədrisinin əsas problemlərindən biri dil öyrənənlərdə dinləmə bacarığının formalaşdırılmasıdır. Çox təəssüf ki, ölkəmizdə nəşr olunmuş dərsliklərimizdə dinləmə bacarıqlarının formalaşdırılması nəzərdə tutulsa da, bu bacarıqların inkişafı üçün dinləmə materialları və ya tapşırıqlar verilməmişdir. Bu baxımdan demək mümkündür ki, hətta erkən yaşlardan şagirdlərimizdə dinləmə bacarığı aşılanmayıb. Ən əsası isə dərslikdə material olmadığı üçün müəllimlərin işi çox çətinləşir. Bu prosesdə audio-visual və internet vasitələri müəllimlər üçün əvəzedilməz vasitə hesab olunur. Texnologiyanın inkişafı ilə dil müəllimləri öyrənənlərin bilik səviyyələrinə uyğun dinləmə vasitələrini əldə edə bilirlər. Autentik audio dil materialları öyrənənlərə həmin dilin düzgün tələffüzü haqqında fikir sahibi olmağa kömək edir, lakin bu materiallar öyrənənlərin bacarıq səviyyələrinə uyğun seçilməlidir. Dilin tədrisində müxtəlif texnologiyalardan istifadə edərək müəllimlər öyrənənləri dil daşıyıcılarının tələffüzündə həmin dilin vurğusuna öyrəşdirə bilərlər.

Xarici dilin tədrisi zamanı erkən yaşlardan dil öyrənənlərin dinləyib-anlama bacarıqlarını formalaşdırmaq üçün hər hansı çalışma və ya tapşırıq hazırlayarkən müəllim üçün ən səmərəli vasitələrdən bir mahnılardan istifadədir. Mahnılardan istifadə xarici dilin tədrisində dörd istiqamət üzrə dil bacarıqlarını formalaşdırılması üçün tətbiq oluna bilər. Bu vasitə ilə öyrənənlərə geniş lüğət və dil ekspozisiyası təqdim olunur ki, nəticədə, müəllimlər öyrənənlərin mahnıları necə başa düşdüklərini yoxlamaq üçün "boşluğu doldurun (fill in the blank)", "çoxsaylı seçim (multiple choice)", "qısa qeydlər (short notes)" kimi müxtəlif çalışmalar tərtib edə bilərlər. Mahnılardan istifadə zamanı öyrənənlər aktiv öyrənmə mühitində olduqları üçün, əldə olunan biliklərin hafizədə daha yaxşı qalması və nitqdə istifadəsi, nəticə olaraq, mövzu ilə bağlı sərbəst fikir bölüşməsi təmin olunur.

Çağdaş dövrdə istər iş həyatımızda, istər şəxsi həyatımızda və ya təhsilimizdə xarici dil dedikdə, ilk ağla gələn ünsiyyət prosesidir. Danışma kommunikativ dil tədrisinin ən vacib komponentidir. Danışma vacib olduğu qədər də, çətin bir prosesdir. Belə ki, xarici dil öyrənən şəxslərdən heç də hamısı öyrəndikləri dildə ünsiyyət qura bilmir və ya fikir çatdırmaqda çətinlik çəkirlər. Ünsiyyət prosesini aktivləşdirmək, dil öyrənənləri danışmağa həvəsləndirmək və dil baryerini aşmaq müəllimlərin üzərinə düşən ən əsas öhdəliklərdən biridir. Bu işdə audio – vizual vasitələrdən istifadə müəllimlərə yardımçı ola bilər.

Öyrənənlər maraq və seçimlərinə uyğun olan bir şeyi qarşılarında əyani olaraq gördükdə mövzu ilə bağlı fikir bildirməyə həvəsli olurlar. Vizual vasitələrdən əldə olunan məlumatlardan istifadə edərək sərbəst nitq qurmaq, təqdimat

bacarıqlarını inkişaf etdirmək üçün videolardan da istifadə səmərəli hesab oluna bilər. Aktiv görüntü dilöyrənənlərin diqqətini təqdimatın əsas ideyasına yönəldir və təqdimata başlamazdan əvvəl müəllim təqdimatla bağlı lövhədə bəzi vacib sualları yazır ki, onun məzmunu barədə ümumi məlumat əldə edirlər və sualları nəzərdən keçirdikdən sonra şifahi cavab verə və ya baxarkən qeydlər götürə bilərlər.

Müasir tədris sistemində müəllimlərin əsas köməkçilərindən biri də Power Point slaydlarıdır. Bu vasitə cəlbedici təqdimatlar və audiovizual avadanlıqlarla tədris prosesini daha dinamik edir. Həmçinin, müəllimlər inanırlar ki, Power Point məzmunu daha maraqlı etdiyindən tələbələrin diqqətini artırır. Digər tərəfdən, bəzi insanlar Power Point slaydlarının tədris üçün həmişə faydalı olmadığını düşünürlər. Onların fikrincə, təqdimatçının fikrini izləyicilərdən daha çox slaydlara cəmləşdirməsi onunla tamaşaçı arasına bir sərhəd çəkir.

Oxu, əsasən də tələbələr üçün bütün akademik həyatları boyunca çox sayda dərslik və vəsaitləri oxumaq lazım olduğuna görə zəruri dil bacarıqlarından hesab olunur. Lakin hər kəs oxumağı bir o qədər də sevmir və nəticədə dil tədris edən müəllimlərin vəzifəsi çətinləşir. Müəllim oxu prosesini maraqlı etmək üçün vizual şəkil, video və proyektor kimi müxtəlif əyani vasitələrdən istifadə edərək öyrənənlərə mətnin mücərrəd fikirlərini daha səmərəli şəkildə çatdıra bilər və beləliklə, öyrənənlər rahatlıqla mütaliəyə cəlb olunarlar. Ümumiyyətlə, vizual vasitələr oxucu ilə mətn arasında ünsiyyət yaradır, oxuma prosesini sürətləndirir və aktivləşdirir.

Xarici dilin tədrisində əsasən, şifahi nitqə üstünlük verilsə də, yazı vacib dil komponentlərindən biridir. Müasir dövrümüzdə yazı bacarıqlarının inkişaf etdirilməsi üçün müxtəlif cəlbedici audio-vizual vasitələrdən istifadə edilir. Hazırda dil öyrənənləri yazıya həvəsləndirmək üçün müxtəlif əyani vasitələrdən istifadə olunur. Müəllimlər yaradıcı yazı bacarıqlarını formalaşdırmaq üçün müxtəlif rəngli vizual vasitələrdən istifadə edirlər. Məsələn, müəllim iki qonaq otağının görüntüsündən istifadə edərək, esseləri müqayisə etməyi öyrədir. Verilmiş esseyə aid müxtəlif şəkilləri multimedia proyektoru ilə göstərir və öyrənənlərdən iki otaq arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirmələrini istəyir və daha sonra, şəkillərdən götürülən qeydlərdən istifadə edərək müqayisə və kontrast üçün fərqli esse yazmalarını tapşırır.

Lüğət dil öyrənmənin ayrılmaz hissəsidir. Dildən istifadə edərək başqaları ilə ünsiyyət qurmaq üçün həmin dilin aktiv lüğətini bilmək əsas şərtdir. Buna görə də dilin tədrisində lüğətin tədrisinin əhəmiyyəti böyükdür. Lakin, sözlər müəyyən bir kontekstdə tədris edilməlidir ki, tələbələr sözləri yadda saxlayıb və onlardan ünsiyyətdə istifadə edə bilsinlər. Vizual vasitələr lüğətin mənimsənilməsi üçün yaxşı mənbə sayıla bilər. Dil öyrənənlərin obyektləri və onların mənalarını daha yaxşı anlamaları üçün sözləri göstərmək hər zaman faydalıdır, bu şəkildə sözləri asanlıqla yadda saxlamaq olur. Öyrənənlər yalnız şifahi məna verən yeni bir söz eşitsələr, uzun müddət xatırlamaya bilər, lakin lüğətlər şəkillərlə təqdim olunduqda, daha təsirli olur.

**Problemin aktuallığı.** Müasir dövrdə xarici dilin tədrisində texnologiyaların tətbiqi olduqca böyük əhəmiyyət kəsb edir. Audio-vizual vasitələrdən istifadə, dildə tədris və öyrənməni daha effektiv etmişdir.

**Problemin elmi yeniliyi.** Audio – vizual vəsaitlərdən yaradıcı istifadə etmək xarici dil fənninin tədrisi keyfiyyətini artırır.

**Problemin praktiki əhəmiyyəti.** Audio və video vasitələrindən istifadə, öyrənənlərin dili daha dərindən mənimsəməsinə şərait yaradır və onların dil bacarıqlarını inkişaf etdirir.

**Ədəbiyyat:**

1. Veysova Z. Fəal/ interaktiv təlim. Bakı, 2007.
2. Bünyatova F., Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı, 2000.
3. Çakir. D. I. (2006). The use of video as an audio-visual material in foreign language teaching classroom. *The Turkish Online Journal of Educational Technology*
4. Harmer, J. (2001).*The practice of English language teaching.* England: Longman.

**E-mail:** g.huseynzade@mail.ru ; m.aynoure@yahoo.fr
**Rəyçi:** *ped,ü.elm.dok.,dos.* İ.A. Cavadov

**Redaksiyaya daxil olub:** 01.10.2019.